*Mirzə Ələkbər Sabir*



# Fəhlə səndə, özünü bir insanmı sanırsan?

**Fəhlə səndə, özünü bir insanmı sanırsan?!**
**Pulsuz kişi, insanlığı asanmı sanırsan?!**

**İnsan olanın cahü cəlalı gərək olsun,**
**İnsan olanın dövləti, malı gərək olsun,**
**Hümmət demirım, evləri ali gərək olsun;**
**Alçaq, ufacıq daxmanı samanmı sanırsan?!**
**Axmaq kişi, insanlığı asanmı sanırsan?!**

**Hər məclisi-alidə soxulma tez arayə,**
**Sən dur ayaq üstə, demə bir söz ümərayə,**
**Caiz deyil insanca danışmaq füqərayə,**
**Dövlətlilərin kəndini yeksanmı sanırsan?!**
**Axmaq kişi, insanlığı asanmı sanırsan?!**

**Fəqr ilə ğina əhlinə kim verdi müsavat?**
**Mənadə də, surətdə də var buna münafət,**
**Öz fəzlini pulsuz edəməz kimsə isbat,**
**Bu mümtənəi qabili-imkanmı sanırsan?!**
**Axmaq kişi, insanlığı asanmı sanırsan?!**

**Get vur çəkicin, işlə işin, çıxma zeyindən,**
**Məqsud müsavat isə ayrılma ceyindən,**
**Var nisbətin ərbabi-ğinayə nə şeyindən?**
**Bir abbasi gün mzdunu milyanmı sanırsan?!**
**Axmaq kişi, insanlığı asanmı sanırsan?!**

**Dövlətliyik, əlbəttə, şərafətdə bizimdir,**
**Əmlak biizmdirsə, əyalətdə bizimdir,**
**Divan bizim, ərbabi hökümətdə bizimdir,**
**Ölkə dərəbəylik deyə xan-xanmı sanırsan?!**
**Axmaq kişi, insanlığı asanmı sanırsan?!**

**Asudə dolanmaqda ikən dövlətimizdən,**
**Azğınlıq edirsiz hələdə nemətimizdən,**
**Böylə çıxacaqsınızmı bizim minnətimizdən?!**
**Ehsanımızın şükrünü küfranmı sanırsan?!**
**Axmaq kişi, insanlığı asanmı sanırsan?!**

**Heç bir utanırsan?!**
**Ya bir usanırsan?!**
**Əlminnətü-lillah,**
**Odlara yanırsan!**

Ədalət.- 2020.- 1 iyun. S.1.